## 050608 – Energetika mühəndisliyi

Energetika mühəndisliyi ixtisası sənayedə elektrik təchizatı sistemlərinin və avadanlıqlarının, onların güc qurğularının, avtomatikasının, rele mühafizəsinin layihələndirilməsi, quraşdırılması və texniki istismarı üzrə mütəxəssis hazırlığını nəzərdə tutur.

Energetika mühəndisliyi ixtisasının tələbələri mənimsədikləri bilik və bacarıq nəticəsində elektrik təchizatı avadanlıqları və sistemlərinin layihələndirilməsi, istehsalı və istismarı sahəsində yuksək ixtisaslı mutəxəssislər kimi formalaşır.

Bu ixtisası müvəffəqiyyətlə bitirmiş məzunlar yiyələndikləri peşə kompetensiyaları sayəsində elektrik təchizatı sistemləri və avadanlıqlarının, onların güc qurğularının, avtomatikasının, rele mühafizəsinin texniki istismarı ilə məşğul olacaqlar.

Energetika mühəndisliyi ixtisası üzrə təhsilini müvəffəqiyyətlə başa bitirmiş məzunlar elektrik stansiyaları və yarımstansiyalarında, elektrik şəbəkə və sistemlərində, elektrik təchizatı üzrə profilləşən müxtəlif şirkətlər və müəssisələrdə, hava limanlarında, metropolitendə, dəmiryolu idarələrində, neft-qaz sənayesinin müxtəlif bölmələrində elektrik təchizatı qurğularının istismarı üzrə müxtəlif vəzifələrdə və peşələrdə çalışa bilərlər.